

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi

Azərbaycan Turizm və Menecment Universiteti

Azərbaycan Turizm və Menecment Universitetində təhsilalanların etik davranış kodeksi

BAKI 2018

Redaktor: Keyfiyyətin təminatı və akkreditasiya şöbəsinin nəzarətçisi **Bəhruz İsgəndərov.**

Tərtib edən: Keyfiyyətin təminatı və akkreditasiya şöbəsinin baş mütəxəssisi **Firuzə Raşova.**

Korrektor: Rektor müşaviri **Elvin Yusifli.**

Tiraj 100 ədəd

"Təsdiq edirəm"
Azərbaycan Turizm və Menecment Universitetinin
rektoru/ İ.İ.Mədətov
"28" dekabr 2018-ci il

Azərbaycan Turizm və Menecment Universitetində təhsilalanların etik davranış Kodeksi

1. ÜMUMİ MÜDDƏALAR

1.1. «Azərbaycan Turizm və Menecment Universitetində təhsilalanların etik davranış Kodeksi» (bundan sonra «Kodeks») Azərbaycan Turizm və Menecment Universitetində (bundan sonra «ATMU» və ya ismin müvafiq halında «Universitet») təhsilalanların etik-davranış normalarını və prinsiplərini, hüquq və vəzifələrini, məsuliyyətini və məsuliyyətə cəlb olunma qaydalarını tənzimləyir.

1.2. Bu Kodeks Azərbaycan Respublikasının Konstitusiyasına, «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa, digər qanunvericilik aktlarına, «Təhsil prosesi iştirakçılarının etik standartları modeli»nə, Ümumdünya Turizm Təşkilatının Assambleyası tərəfindən qəbul edilmiş «Turizmin qlobal kodeksi»nə və «Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi»nə uyğun hazırlanmışdır.

1.3. Bu Kodeks Azərbaycan Turizm və Menecment Universitetində təhsilalanlara şamil edilir və onun tətbiqində əsas məqsəd tədris prosesinin iştirakçıları arasında sağlam işgüzar mühitin bərqərar olmasına, təhsilalanların etik davranış standartlarına riayət edilməsinə, təhsilin səmərəliliyinin və şəffaflığının artırılmasına, universitetdə baş verə biləcək neqativ halların qarşısının alınmasına və tələbə heyətinin mənəvi keyfiyyətlərinin daha da yüksəldilməsinə nail olmaqdan ibarətdir.

1.4. Bu Kodeks Universitetə daxil olduğu andan etibarən vətəndaşlığından və təhsil növündən asılı olmayaraq bütün təhsilalanlara - tələbələrə, magistrlərə, doktorantlara və əlavə təhsil alanlara şamil edilir.

1.5. Bu Kodeks, eləcə də ona əlavələr və dəyişikliklər ATMU-nun İntizam Komissiyasının qərarı ilə təsdiq edildiyi gündən qüvvəyə minir və onun əməl olunmasına nəzarətin təşkili universitetin rektoru tərəfindən müəyyən edilir.

2. ETİK DAVRANIŞ PRİNSİPLƏRİ VƏ ONLARA UYĞUN TƏLƏBLƏR

2.1. Qanunun aliliyi: bu Kodeks əsas olaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş normativ hüquqi aktlara əsaslanaraq tətbiq edilir. Qanunvericiliyə əsaslanmayan hərəkətlər və hərəkətsizlik yolverilməzdir. Təlim-tərbiyə prosesinin bütün iştirakçıları qanuna tabe olmalıdırlar. Heç kim qanundan yüksəkdə dura bilməz. Hamı qanunun aliliyinə hörmət etməlidir.

2.2. Bərabərlik prinsipi: intizam qaydalarını pozmuş təhsilalanlar irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, maddi vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən və digər hallardan asılı olmayaraq intizam məsuliyyətinə cəlb olunurlar.

2.3. Ədalət prinsipi: intizam qaydalarını pozmuş təhsilalana tətbiq edilən intizam tənbehi ədalətli olmalıdır, yəni pozuntunun xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına uyğun olmalıdır.

2.4. Mədəni davranış: təhsilalanlar tədris prosesinin iştirakçıları ilə davranışında nəzakətli, diqqətli və təmkinli olmalıdır. Təhsilalan davranışı ilə əlaqədar iradları, tənqidi fikirləri qəbul etməli, qiymətləndirməli və onlardan düzgün nəticə çıxarmalıdır. Təhsilalan səmimi, çalışqan, intizamlı, təşəbbüskar olmalı, xarici görkəminə, geyiminə xüsusi fikir verməli, hər zaman səliqəli olmalıdır.

2.5. Humanizm prinsipi: intizam qaydalarını pozmuş təhsilalana tətbiq edilən intizam tənbehi insan ləyaqətini alçaltmaq məqsədi daşıya bilməz.

2.6. Qərəzsizlik: Təhsilalan tədris prosesində qərəzsiz olmalı, irqinə, etnik mənsubiyyətinə, dilinə, cinsinə, sosial mənşəyinə, dinə münasibətinə, əqidəsinə, ictimai mənsubiyyətinə görə hər kəsə qarşı tolerant olmalıdır. Bəşəriyyətin müştərək etik dəyərlərinin dini, fəlsəfi və əxlaqi inanc müxtəlifliyinə hörmət və tolerant yanaşma çərçivəsində başa düşülməsi turizmin əsasıdır, tələbələr bütün xalqların, o cümlədən azlıqların, yerli xalqların ictimai və mədəni ənənələrinə və adətlərinə ehtiramla yanaşmalı və onların önəmini başa düşməlidilər.

3. TƏHSİLALANLARIN HÜQUQLARI

Təhsilalanlar, «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununun 32-ci maddəsində nəzərdə tutulan hüquq və vəzifələrinə uyğun olaraq etik davranış qaydaları üzrə aşağıdakı hüquqlara malikdirlər:

- dövlət təhsil standartlarına uyğun təhsil almaq, elm, turizm və mədəniyyətin müasir səviyyəsinə uyğun müvafiq bilik qazanmaq və tədris fənlərinin seçilib müəyyənləşdirilməsində iştirak etmək;
- universitetdə cavabdeh şəxslərin razılığı əsasında başqa ali məktəblərdə (fakültələrdə) bütün növ məşğələ və tədbirlərdə iştirak etmək;
- universitetin fəaliyyəti ilə bağlı mühüm məsələlərin müzakirə və həllində iştirak etmək;
- universitet kitabxanasından, İKT vasitələrindən, tədris, elm və digər bölmələrin xidmətlərindən ödənişsiz istifadə etmək;
- təhsil ilə əlaqədar universitetin aidiyyəti struktur bölmələrindən özünə aid arayışlar, əmrlərdən çıxarışlar, transkriptlər və digər sənədləri almaq;
- bütün növdən olan elmi tədqiqat işlərində, konfranslarda, simpoziumlarda iştirak etmək, öz işlərini nəşriyyata, həmçinin universitetin nəşrlərinə təqdim etmək;
- dövlət təhsil standartı çərçivəsində tədris planı fənlərindən başqa əlavə mövzu və tədris fənləri daxil olan, eləcə də mütəxəssis hazırlığı üçün sifarişçinin maraqlarını əks etdirən fərdi plan üzrə təlim almaq;
- əlavə (həmçinin ödənişli) tədris xidmətləri əldə etmək;

- özünün şərəf və ləyaqətinə hörmət tələb etmək;
- vicdan, informasiya, şəxsi fikir və əqidəsini ifadə etmək azadlığına malik olmaq;
- beynəlxalq tələbə mobilliyi proqramları haqqında məlumatı əldə etmək və bu proqramlara müraciət etmək;
- tədris proqramlarına tələbə mübadilələrinin əhəmiyyəti, onların iqtisadi, sosial və mədəni faydaları, həmçinin riskləri haqqında məlumatlar verilməlidir;
- Azərbaycan Respublikasının Qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

4. TƏHSİLALANLARIN VƏZİFƏLƏRİ

- təhsil aldığı müddətdə tədrisə dair universitetin nizamnaməsindən, rektorun əmrlərindən, bu Kodeksdən irəli gələn tələblərə əməl etmək;
- tələbə yoldaşları və universitet əməkdaşları ilə ünsiyyətdə dürüst olmaq;
- intizam, inzibati və cinayət məsuliyyəti doğuran hərəkətlərə yol verməmək, belə əməlləri törədənlər barədə dərhal müvafiq rəhbər işçiləri məlumatlandırmaq;
- siqaret çəkilməsi üçün xüsusi olaraq yaradılmış guşələr istisna olmaqla (auditoriyalarda, dəhlizlər, tualetlərdə, pilləkənlərdə, o cümlədən universitetin həyətində və siqaretin çəkməsi qadağan olunan) digər yerlərdə siqaret çəkməmək;
- universitetdə spirtli içki içməmək, narkotik maddələrdən istifadə etməmək və ya universitetə onlardan istifadə edərək gəlməmək, habelə öz səhhətinə və kamilliyinə zərər vuran vərdişlərdən çəkinmək;
- universitetin əmlakını qorumaq və onun korlanması və itməsinə görə müəyyən olunmus qaydada müvafiq maddi məsuliyyət daşımaq;
- rastlaşdığı problem və ya haqsızlıqlar haqqında rəhbər işçilərə məlumat vermək;
- dərslərə müəyyən edilmiş cədvəl əsasında vaxtında gəlmək və dərslərdən vaxtından tez getməmək;
- dərs prosesinin normal gedisinə mane olan hərəkətlər etməmək;
- universitetin nüfuzuna xələl gətirə bilən, cəmiyyətin mənəvi dəyərlərinə zidd olan hərəkətlərə yol verməmək;
- biliklərinin daim artırılmasına səy göstərmək, praktiki vərdişlərə və seçdiyi ixtisas üzrə (istiqamətə görə) müasir tədqiqat metodlarına yiyələnmək;
- ixtisas üzrə tədris planının tələblərini yerinə yetirmək və tədris planı ilə nəzərdə tutulan tədris məşğələlərinin bütün növlərində iştirak etmək;
- cavabdeh şəxslərin icazəsi olmadan tədris auditoriyaları və digər otaqlardan əşya və müxtəlif avadanlıqları çıxarmamaq;
- rəhbərliyin və ya daxili mühafizə əməkdaşlarının tələbi ilə şəxsiyyəti təsdiq edən sənədi, yaxud tələbə biletini dərhal təqdim etmək;
- həm universitetdə, həm də universiteti təmsil etdiyi ictimai yerlərdə nizam-intizamlı və səliqəli olmaq;
- universitetin binasında və ərazisində təmizlik qaydalarına riayət etmək;
- milli dəyərlərə hörmət etmək, onları qorumaq;
- üzrlü səbəblərə görə (ağır və ya yoluxucu xəstəlik, ailə üzvünün rəhmətə getməsi) dərslərə gəlmədikdə, növbəti gündən gec olmamaq şərtilə fakültə dekanını xəbərdar etmək və universitetə gələn günü dərslərin buraxılması səbəbləri haqda məlumat

vermək. Xəstə olduğu halda müvafiq səhiyyə müəssisəsinin müəyyən olunmuş formada arayışını təqdim etmək;
• Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri icra etmək.

5. TƏHSİLALANLARIN İNTİZAM POZUNTUSUNA GÖRƏ MƏSULƏYYƏTƏ CƏLB EDİLMƏSİ

Universitetdaxili intizam qaydalarının pozulmasına görə təhsilalanlara qarşı qanunvericiliklə müəyyən olunmuş qaydada aşağıdakı intizam tənbehi tədbirlərindən biri tətbiq edilir:

5.1. xəbərdarlıq;
5.2. töhmət
5.3. sonuncu xəbərdarlıqla şiddətli töhmət
5.4. tədris prosesindən bir və ya bir neçə semestr kənarlaşdırılması, habelə qanunvericilikdə nəzərdə tutulan hallarda Universitetdən xaric edilmə.

5.1. Xəbərdarlıq təhsilalana hərəkət və davranışlarında daha diqqətli olması vacibliyinin yazılı şəkildə bildirilməsidir və bu, aşağıdakı hallarda verilir:

• başqalarına qarşı kobudluq və hörmətsizlik edilməsi;
• başqalarını narahat edəcək şəkildə ucadan danışılması, qışqırılması, mahnı oxuması, musiqiyə qulaq asmılması və səs-küy salınması;
• ətrafın təmizliyinə riayət edilməməsi;
• universitetin səlahiyyətli şəxsləri tərəfindən soruşulan sualları və verilən sorğuların üzrlü səbəb olmadan vaxtında cavablandırmaması;
• universitetdə müəyyən olunmuş yerlər xaricində elanlar asılması;
• universitetin müvafiq strukturlarının icazəsi ilə asılmış elanları qoparılması, dəyişdirməsi, qaralanması və ya yararsız hala salınması;
• yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntusuna yol verilməsi.

5.2. Töhmət təhsilalana hərəkət və davranışlarında yol verdiyi pozuntuların yazılı şəkildə bildirilməsidir və bu, aşagıdakı hallarda verilir:

• universitetin səlahiyyətli şəxsləri tərəfindən tələb olunan məlumatların onlara məqsədli şəkildə natamam və yanlış şəkildə bildirməsi;
• hərəkətləri və davranışları ilə mühazirə, seminar, laboratoriya işləri, elmi konfransların, mədəni tədbirlərin və s. gedişinin pozulması;
• dil, irq, milli mənsubiyyət, din və məzhəb kimi əlamətlərə görə qütbləşmələr yaradacaq fəaliyyətin göstərilməsi, ayrıseçkiliyin edilməsi;
• universitetdə divarlara və əşyaların üzərinə yazı yazılması, işarələr qoyulması, şəkil çəkilməsi, onların korlanması;
• dərs zamanı auditoriyada tədrisdənkənar fəaliyyətlər üçün mobil telefonlardan istifadə edilməsi;

- universitet daxilində icazəsiz olaraq elanlar və digər yazılı məlumatların yayılması və asılması;
- imtahanlar və ya digər akademik tapşırıqlar zamanı müvafiq qaydaların tələblərinin pozulması;
- başqalarına qəsdən təhqiramiz sözlərlə sataşmaq və ya kobud və yolverilməz hərəkətlərlə fiziki təsirlər edilməsi;
- təkbaşına və ya qrup halında Universitet daxilində və xaricində Universitetin nüfuzuna xələl gətirəcək hərəkətlərin edilməsi;
- tədris prosesində digər kobud pozuntulara yol verilməsi.

5.3. Sonuncu xəbərdarlıqla şiddətli töhmət yol verdiyi intizam pozuntusu qeyd olunmaqla yazılı şəkildə bildirilir və bu, aşagıdakı hallarda verilir:

- universitet daxilində təkbaşına və ya başqaları ilə birlikdə dövlətçiliyə və qanunvericiliyə zidd olan siyasi xarakterli təbliğatla məşğul olunması, habelə belə fəaliyyətə başqalarının cəlb edilməsi;
- intizam qaydalarının pozulması ilə bağlı aparılan təhqiqata mane olunması;
- universitetdən aldığı və ona aid olan sənədin istifadə üçün başqalarına verilməsi və digər şəxslərə aid olan sənədin özü üçün istifadə edilməsi;
- universitet daxilində və xaricində şəxslərin şərəf və ləyaqətini alçaldan şifahi və ya yazılı fəaliyyətlərin göstərilməsi;
- universitetdə spirtli içkinin içilməsi, narkotik maddələrdən istifadə edilməsi və ya universitetə onlardan istifadə edilərək gəlinməsi;
- universitetdə qadağan olunmuş yerlərdə siqaretin çəkilməsi;
- imtahanlarda köçürmək və ya köçürməyə şəraitin yaradılması;
- buraxılış işləri, dissertasiya və s. yazılışında müəllif hüquqlarının pozulması;
- təkbaşına və ya qrup şəklində müəllim və rəhbər işçilərin qəbul etdikləri qərarlara qarşı çıxılması və bununla əlaqədar təhsilalanlar arasında həmin şəxslərə qarşı təbliğat aparılması və ya belə hərəkətlərə cəhd edilməsi;
- universitetdəki əşyalara, qapı, pəncərə, divar və digər yerlərə ideoloji və ya siyasi xarakterli yazılar yazmaq, şəkil, emblem və s. yapışdırılması;
- universitet və ona bağlı qurumlarda, cavabdeh şəxslərdən icazə almadan, müxtəlif tədbirlərin təşkil olunması və ya belə tədbirlərdə iştirak edilməsi;
- universiteti və ya onun hər hansı bir qurumunu təmsil etmək səlahiyyəti olmadığı halda özünü səlahiyyətli şəxs kimi göstərərək bəyanatların verilməsi, iclas və ya tədbirlərdə iştirak edilməsi;
- qanunvericiliklə qadağan edilmiş təşkilatlara üzv olunması və ya bu təşkilatların lehinə fəaliyyət göstərilməsi;
- qanunvericiliklə qadağan edilmiş inzibati hüquq pozuntusuna yol verilməsi;
- cinsi mənsubiyyətə görə ayrı-seçkilik - cinsi qısnama, cinsi əlamətə görə hüquqların bərabər həyata keçirilməsini məhdudlaşdıran və ya inkar edən istənilən fərqə, istisnaya və ya üstünlüyə yol verilməsi.

5.4 Tədris prosesindən bir və ya bir neçə semestr kənarlaşdırılması, habelə universitetdən xaric edilməsi tədbirləri haqqında uyğun qərar aidiyyəti fakültə dekanının, İntizam Komissiyasının təqdimatına əsasən rektorun əmri ilə rəsmiləşdirilir. Belə intizam tədbirləri aşagıdakı hallarda tətbiq edilir:

- təhsil prosesinin iştirakçılarına fiziki zor göstərilməsi, bilavasitə və ya sosial şəbəkələrdə və digər vasitələrdə açıq-aşkar şərəf və ləyaqətinin alçaldılması, eləcə də bu qəbildən olan hərəkətlərlə onlara hədə-qorxu gəlməsi;
- universitet əməkdaşları və təhsilalanlara zor tətbiq edərək inzibati hüquqpozmalarına yol verilməsi;
- güc tətbiq edərək işçilərin və ya təhsilalanların universitet xaricinə çıxarılması, onların öz vəzifələrini icra etməsinə mane olunması, başqalarının belə hərəkətlərə təhrik edilməsi;
- bilərəkdən, planlı şəkildə universitetin nüfuzuna xələl gətirən tədbirlərin keçirilməsi, iclaslar, mitinqlər və nümayişlər təşkil edilməsi, təbliğatlar aparılması;
- universitetdə və digər ictimai yerlərdə inzibati və ya cinayət məsuliyyəti yaradan hüquq pozuntularına yol verilməsi;
- universitetin tikililərinə, qurğularına və digər avadanlıqlarına, habelə informasiya şəbəkəsi sisteminə ciddi zərər vurulması;
- imtahanlarda hədə-qorxu gələrək köçürmənin edilməsi və köçürən təhsilalanların imtahan otağından uzaqlaşdırılmasına mane olunması;
- bilərəkdən öz əvəzinə başqasının imtahan verməsinə şərait yaradılması və ya başqasının əvəzinə imtahan verilməsi;
- imtahan suallarının bir qismının və ya bütövlükdə, hər hansı bir qeyri-qanuni yolla əldə edilməsi;
- universitetə aid olan hər hansı bir sənəddə imzanın saxtalaşdırılması;
- universitet sənədlərində dəyişikliklərin olunması, başqalarının buna təhrik edilməsi;
- universitetin informasiya bazasına daxil olaraq özünün və ya başqasının lehinə qanunsuz əməliyyatların aparılması;
- universitet əməkdaşlarının və təhsil prosesinin digər iştirakçılarının müxtəlif yollarla (rüşvət, hədiyyə, tapşırıq və s.) ələ almaq məqsədi daşıyan əməllərə yol verilməsi;
- cinsi qısnama – təhsil və ya tədris münasibətlərində olan şəxsi alçaldan və təhqir edən, başqa cinsə fiziki hərəkətlərdə, ədəbsiz sözlərdə, jestlərdə, hədələrdə, ləkələyici təkliflərdə və ya dəvətlərdə təzahür edən əxlaqsız davranışlara yol verilməsi;
- qanunvericiliklə qadağan edilmiş, eləcə də yolverilməz hesab edilən digər ciddi intizam pozuntusuna yol verilməsi.

5.5. İntizam məsuliyyətinə cəlb olunmuş təhsilalan intizam qaydalarını təkrar pozduqda ona daha ciddi intizam tənbehi tətbiq edilir. Təhsilalanlara qarşı intizam tənbehi tətbiq edilərkən aşağıdakılar nəzərə alınmalıdır:

- törədilən hadisənin ağırlıq dərəcəsi;
- vurulan ziyanin dəyəri;

- hadisənin baş vermə yeri, faktı və halları;
- intizam tənbehini yüngülləşdirən və ağırlaşdıran hallar;
- hadisənin qəsdən və ya ehtiyatsızlıqdan törədilməsi;
- tələbəni xarakterizə edən amillər;
- hadisənin baş verməsinə təsir edən səbəb və şərait.

5.6. Xəstəlik, tətil, akademik məzuniyyət və ya hamilələlik və doğuşa görə məzuniyyət vaxtı təhsilalanlarin universitetdən xaric edilməsinə yol verilmir.

5.7. Təhsilalana intizam tənbehinin tətbiq edilməsi fakültə dekanının yazılı təqdimatı ilə rektorun əmrinə əsasən həyata keçirilir. Tələbə 3 gün ərzində rektorun müvafiq əmri ilə tanış edilir.

5.8. İntizam tənbehi müvafiq hadisənin baş verməsinin aşkar olunduğu gündən bir ay keçənədək tətbiq edilə bilər.

5.9. Haqqında araşdırma aparılan tələbə Universitet daxilində fakültəsini və ixtisasını dəyişə bilməz və başqa ali məktəbə köçürülə bilməz

5.10. Təhsilalana tətbiq edilən intizam tənbehi haqqında məlumat tələbənin şəxsi işinə qeyd edilir.

5.11. Təhsilalana tətbiq edilən intizam tənbehi haqqında rəsmi sənəd (əmrin surəti) tələbənin təhsil aldığı fakültənin elanlar lövhəsində yerləşdirilir.

5.12. Töhmət, şiddətli töhmət və 1 semestr, 2 semestr və ya daha uzun müddətə Universitetdən xaric etmə tədbirləri haqqında uyğun qərar rektor tərəfindən verilir.

6. TƏHSİLDƏ MÜVƏFFƏQİYYƏTLƏRİNƏ GÖRƏ TƏHSİLALANLARLA HƏVƏSLƏNDİRMƏ TƏDBİRLƏRİ

6.1. Akademik müvəffəqiyyətlərinə, universitetin elmi-tədqiqat və ictimai həyatında fəal iştirakına görə təhsilalanlar üçün aşağıdakı həvəsləndirmə tədbirləri təyin edilir:

- təşəkkür elan etmə;
- fərmanla təltif etmə;
- qiymətli hədiyyələrlə təltif etmə;
- adlı təqaüdlə təmin etmə.

6.2. Həvəsləndirmələr tələbələrin həmkarlar təşkilatının rəyi soruşulmaqla rektorun əmri ilə elan edilir və iclasda qrup (fakültə) tələbələrinin nəzərinə çatdırılır.

6.3. Həvəsləndirmələr haqqında əmrlərdən çıxarış təhsilalanın şəxsi işində saxlanılır

7. İNTİZAM TƏNBEHİNDƏN APELYASİYA ŞİKAYƏTİNİN VERİLMƏSİ QAYDALARI

- İntizam tənbehi ilə bağlı rəsmi əmr haqqında tələbəyə məlumat verilməndən 3 iş günu müddətində tələbə apelyasiya şikayəti verə bilər.

- Apelyasiya şikayəti yalnız universitetdən xaric edilmə intizam tənbehi ilə əlaqədar verilə bilər.
- Apelyasiya şikayəti birbaşa rektora ünvanlanır.
- Apelyasiya şikayəti ilə bağlı rektor tərəfindən apelyasiya komissiyası yaradılır və 5 iş günü müddətində araşdırma aparılır.
- İlkin araşdırmada iştirak edən şəxslər apelyasiya komissiyasının üzvü ola bilməzlər.
- Apelyasiya komissiyası şikayəti araşdırır və intizam tənbehi ilə bağlı verilən qərarın qüvvədə saxlanması, ləğv edilməsi və ya ona dəyişikliklər edilməsi barədə rektora tövsiyələrini verir.
- Dərslərində və davranışlarında yaxşı göstəricilərə görə intizam tədbiri 6 aydan sonra vaxtından əvvəl götürülə bilər.
- Apelyasiya komissiyasının tövsiyələrinə əsasən rektor son qərar verir və bu qərar qətidir. Bu qərardan təhsilalan müəyyən olunmuş qaydada məhkəməyə müraciət edə bilər.
- Təhsilində və davranışlarında yaxşı göstəricilərə görə təhsilalanın intizam tənbehi həmin tənbeh verilən gündən 6 ay keçdikdən sonra müvafiq fakültə dekanının təqdimatı əsasında rektorun əmri ilə vaxtından əvvəl götürülə bilər.

8. YEKUN MÜDDƏALAR

8.1. Təhsilalanlarla universitet arasında tədris prosesinin tənzimlənməsinə dair müqavilələr bağlanılan zaman həmin müqavilələrdə bu Kodeksa istinad edilən müvafiq müddəalar nəzərdə tutulmalıdır.

8.2. Bu Kodeks, «İşçilərin etik davranış Kodeksi», «Azərbaycan Turizm və Menecment Universitetinin daxili intizam Kodeksi», eləcə də «Təhsil prosesi iştirakçiları üçün etik standartlar modeli» ayrılıqda universitetin müvafiq məlumat lövhələrində, hər kəsin diqqətini cəlb edən formatda tərtib edilib asılır.